Statik IP ünvanı, daha böyük, offislər,müəssisələr şirkətlər tərəfindən üstünlük verilən IP növüdür. Dinamik IP-də İnternetə hər dəfə qoşulduğumuda müxtəlif IP nömrələri ilə qarşılaşırıq,ancaq statik İP ünvaninda belə deyil. IP nömrəniz həmişə sabitdir. Onların kompüterlərinə uzaq olmağı istəyən şirkətlər üçün, statik IP bu səbəbdən çox vacibdir. Statik IP və Dinamik IP ünvanları arasında fərq qoyan ən vacib xüsusiyyətdir. Statik bir IP ünvanı ilə kompüterinizi FTP server və ya veb server kimi istifadə edə bilərsiniz və kompüterinizə istənilən yerdə uzaq PC kompüterlər ilə daxil ola bilərsiniz. Bu, işlərini uzaqdan aparmaq idarəetmək istəyən məşğulluq proqramı olan insanlar üçün çox faydalıdır. Statik İP hər hansi müəssisədə şirkətdə offislərdə internet xidməti olan provayder vasitəsiylə internetə bağlana bilir. Dinamik IP isə evdələrdə daha çox istifadə olunur və sizin bağlı olduğunuz modem vasitəsiylə internetə qoşula bilirsiz. Belə desək xususilədə, internet üzərindən kompüter, server və ya kameraya çıxış təmin etmək üçün ən optimal variant statik IP-nin istifadəsi daha vacibdir və bu mənada böyük rahatlıq təmin edir.

Statik IP istifadə sahələri;

- *oyun server,*
- *web - domain adı xidməti,*
- *e-poçt server, uzaq masaüstü idarə edilməsi,*
- *FTP xidməti,*
- *video konfrans,*
- *ərizə.*

Statik IP ünvanı üçün ayrıca bir tələb lazımdır statik İP unvanin nömrəsini hər hansi şirkətdə müəssisədə,ofisslərdə İT şöbəsindən olan administratorlar təyin edir və statik İP DHCP adalan server vasitəsiylə paylanılır. Statik İP ünvani nömrəsi təyin olunmadıqda əks halda kompüterinizə dinamik bir IP nömrəsi veriləcəkdir.

ƏDƏBİYYAT

1. ƏLİZADƏ M.N, SALMANOVA M.Ə, ABBASOVA X.E, ORUCOVA M. Ş. SEYİDZADƏ E. V."İNFORMATİKA", Dərslik, "BİLİK" nəşriyyatı, BAKI 2015
2. Л.В. Воробьев, А.В. Давыдов, Л.П. Щербина "Системы и сети передачи информации". Москва, Academia, 2009 г.
3. Б. Д. Кудряшов. "Теория информации" – Санкт-Петербург, Питер, 2009 г.
4. В.С. Сергеенко, В.В. Баринов. СЖАТИЕ данных, речи, звука и изображений в телекоммуникационных системах. Москва 2011.
5. http://www.onurunurlu.com/dosyalar/agsistemleriyonlendirme/tcpip.pdf

UOT:002.

KOMPÜTER TEXNOLOGİYALARININ LİNGVİSTİK ARAŞDIRMALARDA VƏ XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ TƏTBİQİ

Aynurə ƏLƏKBƏROVA, Günel BAYRAMOVA

Bakı Mühəndislik Universiteti

aelekberova@beu.edu.az, gbayramova@beu.edu.az

XÜLASƏ

Koqnitiv neyrotexnologiyalar, kompüter lingvistikası, eləcə də neyrolinqvistika bu gün koqnitiv psixologiya sahəsini daha da inkişaf etdirərək, yeni istiqamətlərin yaranmasına səbəb olmuşdur. Bu istiqamətlər son illərdə daha da genişlənərək, yeni modellərin, terminlərin və elm sahələrinin yaranmasına şərait yaratmışdır.

Qədim zamanlardan insanlar həmişə dağların, çayların, meşələrin görünməyən tərəfində nələrin olduğunu öyrənmək istəmiş, oraya gedib çatmağın xəyalını qurmuşdu. Keçmişdə belə araşdırmaların nəticəsində yeni torpaqlar kəşf olunmuş, xəritələr yaranmış və bir çox şəhərlər salınmışdır.

Bugün isə, alimlərin tədqiqat sahələrindən biri, bizə ən yaxım olmasına baxmayaraq, öz sirli dünyasını bizdən gizli saxlayan, planetlimiz qədər fundamental olan bir obyekti araşdırmaqdır. Bu obyekt – insan beynidir. Ümumi çəkisi təqribən 1400 qram olan bu "qara qutu" inanılmaz gücə, yaddaşa və emal sürətinə malikdir.

Bu məqalədə beyinin öyrənmə prosesi zamanı və xarici dilin mənimsənməsi zamanı insane beynindəki neyronların hansı mərhələlərdən keçdiyi konkret bir misal üzərindən araşdırılıb analiz edilmişdir. Linqvistika sahəsində, kompüter texnologiyalarının geniş tətbiqi, kompüter əsaslı tərcümə proqramlarının, lüğətlərin, dil öyrədici oyunların yaradılmasına və sürətlə yayılmasına şərait yaratmışdır.

Açar sözlər: kompüter texnologiyalari, insan beyni, neyron, xarici dil.

THE USE OF COMPUTER TECHNOLOGIES IN LINGUISTIC STUDIES ON THE EXAMPLE OF FOREIGN LANGUAGE LEARNING

ABSTRACT

Cognitive neurotechnologies, computer linguistics, and neurolinguistics have caused changes in today's cognitive psychology. These branches have transformed into more sophisticated and topical areas in recent years and have given rise to new models, terminology, and scientific areas.

Since ancient times, people have always wanted to know what's happening on the other side of the mountains, rivers, and forests, and have dreamed of going there. In the past, as a result of these studies, new lands were discovered, maps were created, and cities were built. Today, scientists are investigating the object that is even more fundamental than our planet, the mystery of all the universe, the closest to us, but keeping its dark world far from us. This object is brain. This "black box" with a total weight of about 1400 grams has incredible power and processing speed. The stagesthat neurons in the brain of a learner pass during learning process have been analyzed over the process of mastering the foreign language. The extensive use of computer technology in the linguistic field has led to the creation and rapid dissemination of machine learning-based translation programs, vocabulary, and games on language-learning.

Key words: computer technology, human brain, the neuron, foreign language.

ИСПОЛЬЗОВАНИЕ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В ЛИНГВИСТИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ НА ПРИМЕРЕ ИЗУЧЕНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

РЕЗЮМЕ

Когнитивные нейротехнологии, компьютерная лингвистика и нейролингвистика вызвали изменения в современной когнитивной психологии. Эти отрасли превратились в более сложные и актуальные области в последние годы и породили новые модели, терминологию и научные течения.

С древних времен люди всегда хотели знать, что происходит на другой стороне гор, рек и лесов, и мечтали побывать там. В прошлом в результате этихисследований, были открыты новые земли, были созданы карты, и были построены города. Сегодня ученые исследуют объект, который даже более фундаментален, чем наша планета, тайна всей вселенной, который к нам ближе всего, но держит нас на расстоянии от своего тёмного мира. Этот объект - мозг. Это «черный ящик» с общим весом около 1400 грамм обладает невероятной мощностью и скоростью обработки. Этапы, которые проходят нейроны в мозгу учащегося в процессе обучения, были проанализированы в процессе овладения иностранным языком. Широкое использование компьютерных технологий в лингвистической сфере привело к созданию и быстрому распространению программ машинного обучения, лексики и игр по изучению языка.

Ключевые слова: компьютерные технологии, мозг человека, нейроны, иностранные языки.

Giriş

İnsanın unikal verbal (şifahi) ünsiyyət qabiliyyəti onu digər canlılardan fərqləndirərək, mürəkkəb və abstrakt anlayışları asanlıqla digər insanlara ötürməyə imkan verir. İnsanlar həyatlarında və təhsillərindəuğur qazanmaq, karyera əldə emək, başqa bir ölkəyə köçmək və ya sadəcə olaraq bir dili və onun istifadəçilərinin mədəniyyətini sevdikləri üçün xarici dili öyrənirlər. Bununla yanaşı, hər hansı bir dilin öyrənilməsi, ağıl və beynin inkişafı üçün olduqca faydalı hesab olunur. Maraqlıdır ki, bir xarici dilə mükəmməl yiyələnməkdənsə, bir neçə dili orta səviyyədə bilməkdaha əhəmiyyətlidir.Yeni dillərin öyrənilməsi zamanı beyində baş verən dəyişikliklər, bu zaman insan beynindəki neyronların düzülmə mərhələləri, hansı dillərin öyrənilməsinin beyin inkişafına daha çox təsir etməsi kimi problemlərin araşdırılması böyük əhəmiyyət kəsb edir.Məqalədə xarici dilin öyrənilməsi zamanı insan beyni neyronlarının tədqiqi və analizi aparılmaqla əldə edilən müəyyən qarşılaşdırılmalar göstərilmişdir.

Süni intellekt aləmindəki son araşdırmaların nəticəsinə əsasən, yaşlanmağa başlayan insan beyninin intellekt səviyyəsində baş verən dəyişikliklər müxtəlif insanlarda müxtəlif xarakterlidir. Məsələn, idmançıların maksimum nəticə göstərə biləcəkləri ortalama yaş dövrü 20 hesab olunsa da, müəyyən vaxtdan sonra bu imkanlar xeyli aşağı düşür. İnsan intellekti isə özünün tam formalaşma nöqtəsinə nisbətən gec yaşlarda çatır. Bəzi mənbələr insan intellektinin maksumum dərəcəsinin məktəb və universitet yaşlarına təsadüf etdiyini, bəziləri isə bu dönəmin məhz 40-50 yaşlar arasında olduğunu deyirlər. Ümumiyyətlə, intellektin öyrənilməsi məsələsi, fransız psixoloqu Alfred Bine tərəfindən 1900-cu illərdə öyrənmə prosesində əziyyət çəkən uşaqların üzərində aparılan elmi diaqnostikadan başlanmışdır[1].Həmin dövrdə psixoloqları yalnız intellekti ölçmə problemi maraqlandırırdı.Alfred Bine öz həmkarı T. Simon ilə birlikdə uşaqların qabiliyyətlərini müəyyənləşdirmək üçün, hal-hazırda Bine-Simon şkalası adlanan testi hazırladı. Bu test sonradan Bine və Simon tərəfindən dəfələrlə təkmilləşdirildi. İngilis psixoloqu, faktor analizinin müəllifi Çarlz Spearman 1904-cü ildə uşaqların qabiliyyətlərini müəyyənləşdirmək üçün ümumi intellekt ideyasını təklif etdi. Sonralar, 1983-cü ildə Harvard Universitetinin professoru Hovard Qardnerin çoxtərəfli intellekt nəzəriyyəsi İQ səviyyəsinin ölçülməsinin çox məhdud olduğunu göstərməklə yanaşı, 8 müxtəlif intellekt növünün mövcudluğunu sübut etdi. Bu intellekt növlərinin hamısının eyni anda bir insanda olması və onların inkişaf səviyyəsinin müxtəlif dövrlərdə fərqli şəraitə uyğun olaraq dəyişə bilməsi göstərildi[2]. Məsələn, Şiniçi Suzukiyapon sripkaçısıdır. O, uşaqlarin musiqi təhsili üçün yeni üsul təklif etdirmişdir. Bu üsul, yeni doğulmuş körpəyə bir yaşına qədər hər gün müəyyən klassik melodiyaları mütəmadi olaraq dinlətmək və onda klassik musiqiyə qarşı meyl oyatmağa əsaslanır. İki yaşında onlar musiqi alətləri ilə tanış olur, 6-10 yaşlarında isə Vivaldi, Motsart kimi bəstəkarların əsərlərini ifa etməyi öyrənirlər. Suzuki musiqi intellektini necə inkişaf etdirməyin yollarından birini göstərdi, bəs digər intellekt növlərini inkişaf etdirməyi təhsildə necə tətbiq etmək olar?O cümlədən, lingvistik intellektin rəngarəngliyi beynimizdəki neyronları necə dəyişir?Doğrudur, dil dərslərində mətnlərin öyrənilməsi və tərcüməsi, söz oyunları,imla və inşaların yazılması kimi metodlar lingvistik intellektin yüksəldilməsinə xidmət edir. Bunların sırasına xarici dillərin öyrənilməsi də daxildir. Sübut olunmuşdur ki, xarici dillərin öyrənilməsi,insan beynində yeni neyronların yaranmasına səbəb olur, beynin qipokapm hissəsindəki beyin kütləsinin artımına müsbət təsir edir,insanın dünyagörüşünün formalaşmasında önəmli rol oynayır, məlumatın beyin tərəfindən alınıb emal olunmasına və öyrənmə prosesinin yüngülləşdirilməsinə şərait yaradır [3].

Maraqlıdır, bəs beynimiz nə vaxt daha yaxşı inkişaf edir: iki vəya daha çox dili orta səviyyədə biləndə, yoxsa bir dili mükəmməl öyrənmiş olduqda?

İki dili eyni səviyyədə bilən insanlar bilinqvalar, sadəcə bir dili mükəmməl səviyyədə bilənlər isə monolinqvalar adlanır. Yudit Krol (Judith Kroll) öz eksperimentlərində bildirmişdir ki, yalnız bir dildən istifadə etsələr də, bilinqvalar avtomatik olaraq beynin hər iki dilə cavabdeh olan hissələrini aktivləşdirə bilir. Bəzi alimlərin fikirlərinə görə, məhz bu mexanizm bilinqvaları monolinqvalarla müqayisədə idarəedici funksiyaları inkişaf etdirərək üstün koqnitiv elastiklik qabiliyyətləri nümayiş etdirdiklərinə görə fərqləndirir[4].Nitqin deyilişini (məqsədyönlü nitq), həmçinin musiqi hərəki mərkəzini və nitqin intonasiya mərkəzini sol yarımkürənin aşağı alın qırışığının arxa hissəsində yerləşən **Broka hərəki** nitq mərkəzi idarə edir. Nitqin eşitmə mərkəzi isə **Vernike mərkəzi** adlanır. O, beyin qabığında sol yarımkürənin yuxarı gicgah qırışığının arxa sahəsində yerləşir[5].

Ana bətnindəki uşağın beyin kütləsinin bünövrəsi, dölün ilk həftələrində qoyulur və uşağın beyin inkişafının 70%-i ana bətnində olarkən baş verir. Körpəliyə bu inkişafın 15 faizi, məktəbəqədər dövrə isə digər 15 faizi düşür. Beləliklə, 6 yaşa qədər beyin strukturunun formalaşması yekunlaşır. Lakin neyronların inkişafı və beyin kütləsinin böyümə prosesi hələ davam edir. Anadan yeni doğulmuş körpənin beynindəki neyronlar müstəqil şəkildə fəaliyyət göstərsələr də, beynin əsas işi - ilk 3 il ərzində beyin hissələri arasındakı bağların(sinapsların) möhkəmləndirilməsi olur. Bu vaxt ərzində körpənin beynindəki neyronlar 1 saniyədə 2 milyona qədər yeni bağlantı – sinaps – qurur. Beynin inkişaf müddətində sinapslar mürəkkəbləşib budaqlanaraq ağacşəkilli bir formaya çevrilir (şəkil 1). Buna görə də beynin ən aktiv periodu 0-3 yaş dönəminə təsadüf edir. İnsan beynində 100 milyarddan çox neyron var. Onların hər biri digər neyronlarla sinapslar vasitəsilə əlaqə qurur və bu sinapsların sayı 10 minə qədər ola bilir. Alimlərin hesablamalarına görə, beyin qabığındakı sinapsları saymaq üçün bizə 32 milyon il lazımdır! Beyindəki prosesləri süni neyron şəbəkəsi vasitəsilə iləmodelləşdirmək və hər hansı bir əməliyyatı yerinə yetirmələri üçün modeli öyrətmək lazımdır. Burada, obyektlərin dəqiq tanınmasıyla yanaşı, insan səsinin digər lazımsız səs-küydən ayrılaraq düzgün emal edilməsi və ötürülməsidə böyük əhəmiyyət kəsb edir.

Şəkil 1. Öyrənmə prosesində beyin neyronunun inkişaf mərhələləri



Beyindəki qavrama prosesinin sadələşdirilmiş halını aşağıdakı addımlarla göstərmək olar:

1. Reseptorlar vasitəsilə məlumatların əldə edilməsi əvvəlki təcrübələrlə (orijinalla)müqayisə edilir;
2. Əgər əlaqə yoxdursa, bu səs-küydür və ona görə də qəbul edilmir. Əgər əlaqəli bir şey varsa, bu zaman faktların (orijinallardan birinin) tanınması baş verir;
3. Fakt əhəmiyyətlidirsə, biz onu xatırlayırıq, yaxud ümumiləşdiririk. Sonra bu fakta uyğun hərəkət edirik. Məsələn, danışırıq (cavab veririk) və ya kodu yazırıq (yaddaşımıza yazırıq);
4. Yadda qalan və təhlil edilmiş məlumatların həcmini azaltmaq üçün o ümumiləşdirilir;
5. Xülasə edildikdən sonra, məlumatlar yenə əlaqələndirilir və təhlil edilir[6].

Linqvistik, musiqi, məntiqi-riyazi və ya hər hansı digər intellektual qabiliyyətlər müxtəlif yollarla aktivləşdirilir.Biz sadə bir təlim prosesi zamanı beyində nə baş verdiyinə nəzər saldıq. Əgər dil öyrənmə ilə bağlı danışırıqsa, bu proses beyinin sol yarımkürəsində - Perisylvian bölgəsində lokalizə olunur. Amma araşdırmaların nəticələrinə görə bu prosesdə hər iki yarımkürənin neyronları iştirak edir.Bu sahənin ön hissəsi - Broka mərkəzi, əsasən qrammatika və sintaksis üçün məsuliyyət daşıyır, arxa - Vernike mərkəzi isə sözlərin səsləndirilməsini anlamağa kömək edir. Məsələn, bir adamın Broka mərkəzində zədələnmə varsa, o danışa bilməyəcək və yaxud Vernike mərkəzi zədələnərsə, artıq eşitdiklərini anlamayacaq (şəkil 2)

Şəkil 2. Beyində nitq zonası



Bir dil necə qavranılırvə yadda qalır ?

Bu məqamda dili yadda saxlamaq mexanizmi haqqında da bəhs etmək zəruridir. Hollandiyada Maks Plank Psixolinqvistika İnstitutunun direktoru Uilyam Levelt gündəlik işlənən sözləri yadda saxlama və onlardan istifadə etmə zamanı üç əsas sistemi təsvir etmişdir:

1) *leksik, 2) sintaksis və 3)fonetik.*

Birincisi, leksik sistem yalnız biz bir şey demək istədiyimizdə aktivləşir və sözlərə görə deyil, onların mənalarının izahına görə məsuliyyət daşıyır. Buna görə bir söz tapmaq istəyərkən əvvəlcə o sözün mənası duyğu orqanları vasitəsilə birbaşa duyulur.

Sintaksis sistemi danışılan dilin sintaksis qaydalarını (fellərin, halların birləşməsi) mənaya tətbiq edir. Bu, insanlar arasında çox işlənən "dilin ucunda" ifadəsi üçün məsuliyyət daşıyan mərkəzdir, sözü bildiyimizdən əminik, lakin hələ də onu xatırlaya bilmirik.Həmin an sözün mənası bilinir və sintaksis sistem o sözün aid olduğu dilin söz formalarından ibarət söz seçimini işə salır.

Nəhayət, üçüncü mərkəz - fonetik sistem - səslərin mənalara tətbiqidir. Bu sistem işə düşəndə sözün tələffüzü baş verir.Bəzən bir sözü unutduğumuz zaman onu səslər vasitəsilə xatırlamağa çalışırıq, məsələn "s" səsi ilə başlayır, yaxud içində "z" səsi var və s. Xatırladığımız səsləri toplayıb sözləri tapmağa çalışırıq.

Yəni, üç mövzu var: mənalar, onlarla əlaqəli səslər və ana dili qaydaları. Hər üç mövzudan biri digəri ilə qarşılıqlı əlaqədədir.İndi bizə xarici dilin niyə ana dilimiz kimi asan mənimsənilməməsi daha aydın olur. Dil yalnız bir söz vahidi deyil və onun bütün hissələri (mənası, forması, səsləri) beynin müxtəlif yerlərində saxlanılır. Bir xarici dil öyrənməklə biz əslində üç fərqli dil sistemini öyrənirik.Bu həmçinin dil öyrənilməsində birtərəfli yanaşmanın-ya yalnız qrammatika, ya da yalnız danışıq üzərindən dilin mənimsənilməsinin niyə işə yaramadığını aydın şəkildə izah edir.

Levelt həmçinin hesab edir ki, yaş irəlilədikcə bizim dil öyrənmə qabiliyyətimiz və sürətimiz azalmır, sadəcə öyrəndiyimiz dilin beynimizdə olan üç sistemində məlumatlar və birləşmələr artdığından mövcud məlumatı beyində işləyib hazırlamaq üçün daha çox vaxt tələb olunur.

Onun bu fikrini bilinqvalar üzərində aparılan təcrübələr də təsdiq edir. Onların bir sözü tələffüz etmə sürəti adətən bir dildə sərbəst danışanlardan daha yavaş olur.Lakin sürət, bu vəziyyətdə nisbi bir konsepsiya olduğu üçün, bizim bir saniyədə 10-15 hecadan ibarət 2-3 söz qura bildiyimizi və hər hansı bir mənanı ifadə etmək üçün uyğun gələn bir söz tapmağa ortalama 0,071 saniyə sərf etdiyimizi nəzərə alsaq, bilinqvalar dərk etmə prosesində insanlar heç də digər insanlardan yavaşdüşünmürlər[7].

Hazırda öyrənilməkdə olan dillər və dil qrupları

Dillərin roman, german, slavyan və digər dil qruplarına bölündüyü məlumdur. Bakıda hal-hazırda öyrənilməsinə ən çox tələbat duyulan dilləri qruplarına görə ayırıb onların mürəkkəblik dərəcəsinə nəzər salaraq bu nəticəyə gəlmək olar ki, eyni qrupdan olan dillərin və qarmmatikası asan mənimsənilən dillərin öyrənilməsinəüstünlük verilir. Məsələn, tələbata uyğun olaraq**rus dili**(slavyan dili qrupunun şərq bölməsinə aiddir.Buna ən yaxın olan isə belarus və ukrayna dilidir.Bu qrupun bütün üzvləri təxminən eyni qrammatika, söz və yazı sisteminə malikdir), **ingilis dili(**German qrupuna aiddir,dilin öyrənilməsi heç bir xüsusi problem yaratmır, çünki heç bir hal kateqoriyası, sözlərin koordinasiyası və cinsiyyət anlayışı yoxdur. İngilis dilində sözlərin tələffüzü və yazılışında əhəmiyyətli fərqlər, qaydasız fellərin istifadə edilməsi və s. bu kimi məqamlar olsa da, olduqca asan qrammatikaya malikdir. Beynəlxalq aləmdə istənilən ölkədə təhsil alma imkanları yaradır),**alman dili(**müasir texnologiyalar sahəsində ən vacib dillərdən biridir. Alman dilinin qrammatikasının çətin mənimsənildiyi isə danılmazdır. Bu dili bəzi millətlər bir neçə səbəbə görə öyrənməkdə çətinlik çəkirlər, məsələn, fellər cümlənin sonunda işlənir, heç bir sözönu yoxdur, onun əvəzinə qoşmadan istifadə olunur və s.), **ispan dili** (roman qrupuna aiddir, kifayət qədər sadə bir qrammatikaya malikdir, həm İspaniyada həm Latın Amerikası və Meksikada istifadə olunur), **italyan dili** (Halların olmaması və sadə tələffüzü onun geniş sahələrdə populyarlığını quruyub saxlayır. Bununla yanaşı həm də memarlıq, dizayn və moda sahələrində fəal şəkildə istifadə olunması da bu dilə marağı artırır), **fransız dili** (bir neçə sözü ingilis dilində olan sözlərə bənzəyir, ona görə onu da sadə hesab edirlər, fransızlar 18-ci əsrdə xüsusi populyarlıq əldə etmişlər, elə bu gün də bu populyarlığı qoruyub saxlayırlar. Bu dil, beynəlxalq dillər sırasına daxildir, həmçinin incəsənət və moda dillərindən biridir), **çin dili** (heroqliflərin yazılışında ən kiçik cızıq belə yazıda çatdırılan məlumatın mənasında ciddi dəyişikliyə səbəb ola bilir.Çin dilində ən sadə öyrənilə bilən sistem onun qrammatikası, ən çətini isə tələffüzü olduğu hesab olunur.Bu dildə tələffüz zamanı tonlar tez-tez dəyişdiyindən, intonasiyaya xüsusi diqqət yetirmək lazımdır), **yapon dili** (heroqliflərin oxşar mürəkkəb sistemi mövcuddur. Bu dilin fərqi ondadır ki, hər birinin öz əlifbası olan üç yazı sistemi var) kimi dilləri öyrənmək və ya öyrənməmək hər kəs üçün fərdi bir məsələdir, lakin qərar verməzdən əvvəl bu xarici dil lehinə bir neçə mühüm arqumentlə tanış olmaq lazımdır.

Son vaxtlar daha geniş tələbat olan **Azərbaycan dili**- Altay dilləri ailəsinin türk dilləri şöbəsinin Oğuz sinfinin Qərb qrupuna daxildir. Azərbaycan dilini öyrənmək bəzi xarici vətəndaşlara sadə, bəzilərinə isə çətin görünə bilər. Hal – hazırda rus dilli əhali azərbaycan dilini öyrənmək üçün dil kurslarına müraciət edir.Dilimizdə hərflər və səslər latın əlifbasından olduğundan, Roman və German qrupu dillərində danışanlar Azərbaycan dilini mənimsəyərkən bir o qədər çətinliklə üzləşmirlər. Öyrənmə prosesini asanlaşdıran bir digər xüsusiyyət isə cins kateqoriyasının olmamasıdır. Bu o deməkdir ki, sözlərin sonundakı şəxs şəkilçiləri cinslərə görə fərqlənmir və hər iki cinsdə eynidir. Alman və fransız dillərində isə hətta artikl belə cinslərə görə dəyişir. Bir digər sadə cəhəti isə odur ki, Azərbaycan dilində bir sözün içərisində həm cəm, həm mənsubiyyət, həm də hal şəkilçisi işlənə bilir. Məsələn, "kitab-lar-ınız-dan" sözündə bunu asanlıqla görmək mümkündür. İngilis dilində isə bu sözü üç söz əvəz edir: "from your books". Bu xüsusiyyəttə biz koreya ve yapon dillərində də rast gələ bilərik.

Dilləri öyrənmək beyin həcminin artmasına səbəb olur

Xarici dil öyrənərkən insanın beyni sözün əsl mənasında böyüyür.Daha dəqiq desək, onun ayrı-ayrı bölgələri - hipokampus və serebral korteksin bəzi hissələri inkişaf edir. Professional tərcüməçilərin beyinlərinin araşdırma nəticələrini dərc edən tədqiqatçılar, ən azı üç ay bir dilin dərindən öyrənilməsi ilə məşğul olanlar arasında boz maddənin həcminin artdığını və xüsusi araşdırma iştirakçılarının daha çox səy göstərdiyini müşahidə etmişlər. Bunlarin nəticəsində, boz maddənin həmin tərcüməçilərdə daha çox nəzərə çarpacaq dərəcədə artması müşahidə olunmuşdur[8].

Xarici dillər insanları"Alzheimer sindromu"ndan qoruyur

Bilinqvalarda "Alzheimer sindromu"nun başlamasının təqribən 5 il gecikdiyi deyilir. Neyro-psixoloqlar komandası bu nəticəyə gəlməzdən əvvəl həmin sindroma yoluxmuş insanlar arasında kimlərin xarici dilləri bilib-bilmədiyini ayırd etmişlər. Onları iki qrupa bölüb tədqiqat apardıqdan sonra, birinci qrupda demensiyanın ikinci kateqoriyadan təxminən 5,1 il daha gec başladığını aşkar etmişlər.

Hələ əvvəllər həkimlər belə hesab edirdilər ki, beyni davamlı inkişaf etdirən işlərlə məşğul etmək (buraya riyazi məsələlər, davamlı oynanan məntiq oyunları və s. daxildir) Alzheimer sindromunun güclənməsinin sürətini azaldır. Bu sözügedən tədqiqat da elə məhz həmin hipotezin təsdiqi oldu. Onu da qeyd etmək lazımdır ki, dil öyrənilməsinin göstərdiyi profilaktik təsir bu xəstəliyin müalicəsi üçün istənilən dərman vasitələrindən daha güclüdür [9].

İki və daha çox dil bilən insanların yaxşı musiqi duymaq qabiliyyəti olur

Xarici dil öyrənmək, beynin özü üçün daha əvvəl izolyasiya edərək və məhdudlaşdıraraq işləmədiyi səslərin bolluğunu aşkar etməsinə səbəb olur. Çin dilini öyrənən bir avropalı, "s" səsi olduğunu düşündüyü şeyin, əslində üç fərqli səs olduğunu öyrənəndə çox təəccüblənir. Rusca öyrənən bir çinli, cümlədə intonasiya dəyişikliklərinin zənginliyi sayəsində, bu dilin çin dilinin heca və ton müxtəlifliyi ilə qarşılaşdırıla biləcəyinin şahidi olur.Xarici dilibilən şəxs səsləri daha yaxşı tanıyır və daha sonra musiqi alətlərinin mənimsənilməsində daha çox uğurlar əldə edir. Deməli, biz öz musiqi bacarıqlarımız üçün eşitmə orqanlarımızla yanaşı, beynimizə dəborcluyuq, çünki səslərin tanınmasında bilavasitə beyin iştirak edir[10].

Dilçilər bir neçə tapşırığı eyni anda yerine yetirmək bacarıqları ilə fərqlənirlər

Bir neçə dili mənimsəmiş şəxslər bir neçə tapşırıq arasında asanlıqla keçid yarada və eyni zamanda bir çox müxtəlif problemləri həll edə bilirlər.Bundan əlavə, onlar, gözlənilməz dəyişikliklərə daha sürətlə və asanlıqla uyğunlaşmağı bacarırlar. Bu həqiqəti təsbit edən araşdırmanın müəllifləri müxtəlif təcrübələr aparmışlar. Nəticə gözlənildiyi kimi olmuşdur, gənclər məntiqi problemləri 45-50 və daha artıq yaşı olanlara nisbətən daha yaxşı həll ediblər. Bununla yanaşı, iki dilli olanlar gənc, yetkin və yaşlılar arasında elə də ciddi bir fərq ortaya qoymasalar da, yaşlı olan iki dilli insanların eyni anda çox sayda qarışıq tapşırığı həll etmək bacarıqlarını qoruyubsaxladıqları diqqəti cəlb edib. Təbii ki, tədqiqatçılar, insanların bu qabiliyyətlərə malik olmaları üçün, onların uşaq yaşlarından dilləri öyrənməyə başlamalarının çox vacib olduğunu qeyd edirlər[11].

Dillər yaddaşı gücləndirir

Çoxdilli bir mühitdə böyüyən uşaqlar, kiçik yaşlarından yalnız ana dilini eşidən uşaqlardan daha yaxşı yaddaşa sahibdirlər.Üstəlik, tədqiqatçılar tərəfindən müəyyən edilmişdir ki, bir qayda olaraq, bu uşaqlar beyinlərində sərbəst saya bilirlər, daha yaxşı oxu qabiliyyətləri və digər bacarıqları ilə digər uşaqlardan seçilirlər. İki dil bilən uşaqlar, həmçinin, hər hansı bir obyektin və hadisələrin ardıcıllığını daha yaxşı xatırlayırlar. Onlar əvvəlcədən gördükləri bir yeri yadda saxlamaq və bir işin yerinə yetirilməsi üçün görüləcək işlərin siyahısını beyinlərində saxlamaq bacarıqları ilə fərqlənirlər.Bu fərq ilk 5-7 il ərzində özünü göstərir və bir ömür boyu davam edir [12].

İki dil bilən insanlar fikirlərini daha yaxşı cəmləyə bilirlər

Cəmiyyət, adətən, çox dil bilən insanları fikirləri dağınıq, beyinləri daim nə iləsə məşğul elm adamları kimi təsəvvür edir, halbuki bu stereotip həqiqətdən olduqca uzaqdır. Bunun əksinə, onlar önəmli bir hadisənin eyni zamanda həm qaynağını, həm də onun detallarını həssas bir şəkildə incələyə bilirlər. Məsələn, iki dili bilən insanlar əsas ideyanı çox tez qavrayırlar və bununla yanaşı həmin ideyanın detallarını da ayırd edə bilirlər. Multikultural mühitdə yaşayaraq bir xarici dil öyrənən ali təhsilsiz insanlar haqqında danışırıqsa, onların öz ana dilindəki söz ehtiyatı xarici dildə bildiklərindən daha məhdud olur. Ancaq çox dil bilən insanlar, istənilən halda, ana dilinin məntiqini, xüsusilə qrammatika və söz-formalaşdırma üsullarını daha yaxşı dərk edən bir anlayışa sahibdirlər[13].

Kompüter lüğətlərinin dil öyrənmədə istifadəsi

Müasir kompüter texnologiyalarının inkişafı biznes, maliyə, marketing, reklam, elm, təhsil və kütləvi informasiya vasitələrinin də sürətli inkişafına bilavasitə təsir edir. Yeni texnologiyaların tətbiqi ilə xarici dillərin öyrənilməsi prosesinin səmərəliliyinin artırılması üçün həm proqram təminatından, həm də yeni avadanlıq növlərindən geniş istifadə olunur. Təbii ki, dil öyrənmə prosesində lüğətlərin istifadəsi labüddür. Hansı lüğətləri tanıdıqlarına dair dil öyrənmək istəyənlər arasında sorğu keçirilsəydi,sözsüz ki, "Google Translate" cavabı birinci yeri tutardı. Tərcümə proqramı hesab edilən "Google Translate"baza səviyyəsi olan dil öyrənənlər üçün bir vaxtlar tövsiyyə olunmurdu. Çünki, izahlı lüğət hesab edilmədiyi üçün tərcüməçi yerinə öyrədici Longman, Oxford və Macmillan lüğətləri məsləhət görülürdü. Bu tip lüğətlərdə sözlərin sinonimləri, antonimləri, sözönülərlə istifadəsi və digər geniş qaydalar izah edilir. Məlumdur ki, hal-hazırda "Google Translate" proqramının gündəlik tərcümə bazasında təxminən 140 milyarddan ibarətsöz ehtiyatından istifadə olunur[14].Mətnlərin tərcüməsində 103 dildən və maşınlı neyrotərcümə metodundan istifadə edilir.

Şəkil 3. Dilin maşınlı tərcüməsi



Neyron şəbəkəsindən öncəki tərcümə metodunda sözlərin qrammatik qarşılığını nəzərə alaraq proqram onları olduğu kimi tərcümə edirdi.Hal-hazırda sözün tərcüməsini verən, bir neçə sinonimini sıralayan, hətta səsləndirilməsini də dəstəkləyən "Google Translate" mətnlərin tərcümə keyfiyyətini daha da artırmışdır.Google Maşınlı Neyrotərcümə (Google Neural Machine Translation) əsasında iki istiqamətli rekurrent neyron şəbəkələri durur.Rekurrent o deməkdir ki, sistem sözün mənasını bir öncəki sözlərin sırasına uyğun tapır. Neyron şəbəkənin iki istiqamətli olması isə onun analiz və sintez edə bilmə qabiliyyətini göstərir. Hər bir axın vektor analizi aparan səkkiz təbəqədən ibarətdir. Birinci axın cümləni məna elementlərinə bölərək analiz edir, ikinci isə tərcümənin ən yaxın məna ehtimalını hesablayır. Neyron sistemlərində ən kiçik element sözün özü deyil, onun fraqmentləri hesab olunur və bu sistemdə Google Maşınlı Neyrotərcümə otuz iki min belə fraqment istifadə edir. Onu da qeyd etmək lazımdır ki, neyron şəbəkəli tərcümələrin insan tərcüməsinə ən yaxın olduğu aşkar edilmişdir (şəkil 4).

Beləliklə, aydın olur ki, xarici dilin öyrənilməsinə yeni kompüter texnologiyalarının müsbət təsiri danılmazdır. Süni intellektin ən aktual sahəsi olan maşınlı tərcümənin istifadə etdiyi modellər, müasir lüğətlərin və kompüter tərcümə proqramlarının tərkib hissəsidir. Süni intellektin banisinin təbii intellekt, yəni insan beyni olduğunu nəzərə alsaq, əminliklə deyə bilərik ki, xarici dil öyrənməklə biz, lingvistik texnologiyaları daha da təkmilləşdirə bilərik. Belə ki, öyrənmə zamanı yaranan ciddi tələbatlar bizi buna sövq edəcəkdir. Bir çox tədqiqatçıların apardığı təcrübələrə əsasən deyə bilərik ki, kompüterlərin müasir proqram təminatı xarici dil öyrənənlərə rahat ünsiyyət və sərbəstlik verərək, onların daxili motivasiyalarını artırır və yaş məhdudiyyətini aradan qaldırır. Bu isə öz növbəsində gənc, orta və yaşlı təbəqəni xarici dil öyrənmənin heç də imkansız və gec olmadığına inandırır.

Şəkil4. Maşınlı tərcümə prosesi



Buradan da hər kəs üçün nəinki xarici dili, hətta istənilən elm sahəsini istənilən yerdə həyatı boyu öyrənməyə şərait yaranır.

ƏDƏBİYYAT

[1] https://inosmi.ru/world/20150403/227268423.html

[2] Prof.Dr.Vasif Nəbiyev, Yapay Zeka İnsan- Bilgisayar Etkilşimi, Seçkin Yayıncılık, Ankara, 2012, s.27.

[3] https://infourok.ru/news/primenenie-teorii-mnozhestvennogo-intellekta-52.html

[4] http://indigo-centre.ru/blog/kak-izuchenie-yazyika-vliyaet-na-mozg

[5] "Normal Fiziologiya", A.M. Məmmədov, K.V. Sudakov, Təbib Nəşriyyatı, Bakı, 2011, s. 255

[6] https://habr.com/ru/post/436160/

[7] https://corp.lingualeo.com/ru/2017/07/10/kak-izuchenie-yazyika-vliyaet-na-mozg/

[8]J. Mårtensson et al. «Growth of language-related brain areas after foreign language learning». NeuroImage, 2012.

[9] https://special.theoryandpractice.ru/language

[10] J. Krizman et al. «Subcortical encoding of sound is enhanced in bilinguals and relates to executive function advantages». Proceedings of the National Academy of Sciences of the United States of America, 2012.

[11] B. Goldet al. «Lifelong Bilingualism Maintains Neural Efficiency for Cognitive Control in Aging». The Journal of Neuroscience, 2013.

[12] J. Morales et al. «Working memory development in monolingual and bilingual children». Journal of Experimental Child Psychology, 2013.

[13] E. Bialystok, F. Craik «Cognitive and Linguistic Processing in the Bilingual Mind». International Journal of Bilingualism, December, 2014.

[14] https://ai.googleblog.com/2016/11/zero-shot-translation-with-googles.html

[15] https://www.cossa.ru/trends/196086/

INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Mathematics and Computer Science" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:
- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words
4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. .**UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:
- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.
8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

Samples:

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference.”*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*
References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:
- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University- Riyaziyyat və kompüter elmləri" - əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **qrafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Nümunələr:

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

YAZIM KURALLARI

1. "Journal of Baku Engineering University- Matematik ve Bilgisayar Bilimleri" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Resim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

Örnekler:

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyüklükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesafesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No'lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Математики и информатики публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.

2. Статьи принимаются на английском языке.

3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес (**journal@beu.edu.az**). Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.

5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.

6. В статье должны быть указаны коды UOT и PACS.

7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.

9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необходимо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы симпозиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

Например:

a) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc*, Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Palatino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.

11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.

12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.